## “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti
## AÇIQ TENDER ELAN EDİR

| | |
|---|---|
| Tenderin adı: | **“Azər-Türk Bank” ASC tərəfindən Bakı şəhəri, Qaradağ rayonu, LökBatan-Xocasən yolunun cənubunda yerləşən 200 kv m olan qeyri-yaşayış sahəsinin təmir işlərinin satın alınması** |
| Tenderin elan tarixi: | **16.05.2024** |

“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq etmək üçün saytda yerləşdirilmiş Məlumat Sorğusunun doldurulması və qeyd edilən elektron ünvana göndərilməsi mütləqdir. Yalnız bundan sonra “etibarlı təchizatçılar siyahısı”-na daxil olmaq mümkündür. Nəzərinizə çatdırırıq ki, “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti bütün satınalma müqavilələrini yalnız daxili “etibarlı təchizatçılar siyahısı”-nda olan şirkət və fərdi sahibkarlarla bağlayacaqdır.

**Tenderdə iştirak etmək istəyən şirkətlərin xidmət göstərən sahə üzrə ən azı 3 (üç) il iş fəaliyyəti olması tələb olunur.**

**İştirak haqqı: 300 (üç yüz) manat**

İştirak haqqı aşağıdakı bank rekvizitləri üzrə həyata keçirilməlidir:

**“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti**

VÖEN: 9900006111

KOD: 507699

M/h: AZ02NABZ01350100000000022944

H/H: AZ15AZRT45270019440000001999

SWİFT: AZRTAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar, iştirak haqqını ödədiklərinə dair qəbzi təqdim etdikdən sonra, Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85 nömrəli ünvanından və ya mail ilə müraciət edərək (Əlaqələndirici şəxs: Elmira Musayeva, telefon: 012 945, daxili 2508, elektron poçt ünvanı: tender@atb.az ) ala bilərlər.

Tender iştirakçılarından tələb olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

**Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:**

- tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi **(tender zərflərinin açıldığı tarixdən (03 iyun 2024-cü il) sonra azı 30 (otuz) bank günü (yəni ən azı 17 iyul 2024-cü il tarixinədək) qüvvədə olmalıdır;**
- iddiaçının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son üç ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının müflis olmaması, mülkiyyəti üzərinə məhkəmə qərarı ilə həbs qoyulmaması, kommersiya fəaliyyətləri dayandırılmaması və bu növ məhkəmə-hüquq prosedurlarına məruz qalmaması barədə arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;
- iddiaçının öz mülahizəsinə uyğun digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **31 may 2024-cü il saat 16:00-a qədər** Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **03 iyun 2024-cü il saat 11:00-da** Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İştirak edən nümayəndələr səlahiyyətlərini təsdiq edən sənədi (etibarnamə) mütləq şəkildə təqdim etməlidirlər.

**Satınalma Komissiyası**